# **Həftəlik** *Bülleten*

**122**

**19 Dekabr 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri



ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycanda binaların dağılmadan qorunması üzrə - YENİ QAYDA TƏSDİQLƏNİB.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollegiyası "Bina və qurğuların getdikcə artan dağılmadan mühafizəsi. Layihələndirmə normaları"nı təsdiqləyib. Bununla bağlı kollegiyanın sədri Anar Quliyev qərar imzalayıb.

Qərara əsasən, bina və qurğunun hər hansı bir mərtəbəsinin yükdaşıyan konstruksiyalarını hesablayarkən yerli dağılma zonası hündürlüyü 75 m-ə qədər olan bina və qurğular üçün sahəsi 28 kvadrat metrdən (diametri 6 m), hündürlüyü 75 m-dən 200 m-ə qədər olan bina və qurğular üçün sahəsi 80 kvadrat metrdən (diametri 10 m) və hündürlüyü 200 m-dən çox olan bina və qurğular üçün sahəsi 100 kvadrat metrdən (diametri 11,5 m) kiçik olmayan dairə ilə müəyyən ediləcək.

Bundan başqa, bina və qurğuların getdikcə artan dağılmadan mühafizəsi daha səmərəli vasitələrlə təmin edilməlidir. Bu normalar nəqliyyat və hidrotexniki qurğuların layihələndirilməsinə şamil olunmayacaq.

Bu normalar Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.



**Azərbaycanın bu şəhərində böyük söküntü başlayır – Yeni binalar tikiləcək.**

Sumqayıt şəhərində uzun müddətdir qəzalı vəziyyətdə olan, “Fin evləri” kimi tanınan ikimərtəbəli yaşayış binalarının söküntüsünə başlanılıb. Bununla bağlı Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən ərazidə söküntü işləri aparılır. Hazırda söküntü işləri xüsusi texnikanın köməyi və təhlükəsizlik qaydalarına tam riayət olunmaqla davam etdirilir. Bildirilib ki, yeni layihə Sumqayıt şəhərinin ümumi inkişaf konsepsiyasına uyğun şəkildə həyata keçiriləcək və ərazinin sosial infrastrukturunun yenilənməsinə mühüm töhfə verəcək. Aparılan işlər sakinlər tərəfindən də müsbət qarşılanır. Layihə çərçivəsində yeni yaşayış binalarının inşası ilə yanaşı, abadlıq işlərinin aparılması, uşaq oyun meydançalarının, park zonalarının, parkinq sahələrinin və ictimai istifadə üçün nəzərdə tutulan digər obyektlərin yaradılması planlaşdırılır. Sumqayıt Şəhər İcra Hakimiyyətindən bildirilib ki, hazırda bu proses şəhərin bir neçə yaşayış massivində – 4-cü, 15-ci, 16-cı, 17-ci və 21-ci məhəllələrdə ardıcıl və planlı şəkildə davam etdirilir.



**6 faydalı qazıntı yatağı hərraca çıxarılacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi və İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili Mərkəzi tərəfindən faydalı qazıntı yataqlarının istifadəyə verilməsi üzrə növbəti hərrac yanvarın 29-da keçiriləcək. Bu barədə Dövlət Xidmətindən bildirilib.

Hərracda Göyçay rayonu “Göyçay” (3 ha), Ağsu rayonu “Ağsuçay” (6 ha), İmişli rayonu “Bəhrəmtəpə II” (10.9 ha) qum-çınqıl, Ağdam rayonu “Şelli” (3 ha) və “Burundağ” (2 ha) mərmərləşmiş əhəngdaşı və Sumqayıt şəhərində “Sumqayıt” (2.57 ha) gil yataqları investorlara təklif olunacaq. İddiaçılar hərracda iştirakla bağlı sənədləri 22 yanvar 2026-ci il saat 18:00-dək “Bakı KOB evi”nə (Bakı şəhəri, Ziya Bünyadov prospekti, 38C, 1969-cu məhəllə) təqdim edə bilərlər. Əsas şərtlər toplusunu əldə etmək və hərracda iştirak üçün iddiaçılar hərrac haqqında elanda qeyd olunan məbləğdə xidmət haqqını və behi ödəməlidirlər. Hərracda xarici ölkələrin hüquqi və fiziki şəxsləri də iştirak edə bilərlər. Hərrac Əmlak Xidmətləri Məkanında keçiriləcəkdir.



**Sement ixracından gəlirlər 54 milyon dolları ötdü - İLLİK 13% ARTIM.**

Bu ilin ilk 11 ayında Azərbaycandan 54,4 milyon dollar həcmində 869,7 min ton sement ixrac edilib.

Dövlət Gömük Komitəsinə istinadən xəbər verilir ki, sement ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 6,3 milyon dollar və ya 13,1%, miqdar ifadəsilə isə 95,7 min ton, başqa sözlə 12,4% çoxdur.

Qeyd edək ki, 2024-cü ilin yanvar-noyabr ayları ərzində Azərbaycandan 48,1 milyon dollar dəyərində 774 min ton sement ixrac olunmuşdu.

Bu ilin ilk 11 ayının nəticələrinə görə Azərbaycanın ixrac etdiyi sementin 1 kiloqramının orta ixrac qiyməti 10,6 qəpik təşkil edib. 2024-cü ilin eyni dövründə də bu rəqəm dəyişməyib, qiymətdə cüzi – 0,6%-lik artım müşahidə edilib.

Bu il 11 ayında ümumi ixracın 0,23%-i, qeyri-neft sektoru üzrə ixracın isə 1,64%-i sementin payına düşüb. Ötən ilin eyni dövründə isə müvafiq göstəricilər 0,20% və 1,56% olmuşdu.



**Qara metal ixracı zəifləyib - GƏLİRLƏR 81 MİLYON DOLLARA DÜŞÜB.**

Bu ilin ilk 11 ayında Azərbaycandan 80,7 milyon dollar həcmində 77,9 min ton qara metallar və onlardan hazırlanan məmulatlar ixrac edilib.

Dövlət Gömük Komitəsinə istinadən xəbər verilir ki, qara metal ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 495 min dollar və ya 0,6%, miqdar ifadəsilə isə 10,5 min ton, başqa sözlə 11,8% azdır.

Qeyd edək ki, 2024-cü ilin yanvar-noyabr ayları ərzində Azərbaycandan 81,2 milyon dollar dəyərində 88,3 min ton qara metal ixrac olunmuşdu.

Bu ilin ilk 11 ayının nəticələrinə görə Azərbaycanın ixrac etdiyi qara metalların 1 kiloqramının orta ixrac qiyməti 1 manat 76 qəpik təşkil edib. 2024-cü ilin eyni dövründə isə bu rəqəm 1 manat 56 qəpik idi. Bu da illik müqayisədə 20 qəpik və ya 12,8% bahalaşma deməkdir.

Bu il 11 ayında ümumi ixracın 0,34%-i, qeyri-neft sektoru üzrə ixracın isə 2,43%-i qara metalların payına düşüb. Ötən ilin eyni dövründə isə müvafiq göstəricilər 0,33% və 2,63% olmuşdu.



**Şərqi Anadolu İnkişaf Agentliyi (DAKA) və Van Ticarət və Sənaye Palatasının (Van TSO) azərbaycanlı sahibkarlar ilə onlayn görüşü keçirildi.**

16 dekabr tarixində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə Azərbaycan və Türkiyə arasında iqtisadi-ticarət əlaqələrinin gücləndirilməsi məqsədilə Şərqi Anadolu İnkişaf Agentliyi (DAKA) və Van Ticarət və Sənaye Palatasının (Van TSO) azərbaycanlı sahibkarlar ilə onlayn görüşü keçirildi. Online görüşdə Van vilayətinin turizm, logistika, kənd təsərrüfatı və heyvandarlıq, qida sənayesi, bərpa olunan enerji və xidmət sahələrində mövcud investisiya imkanları təqdim olundu. Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının (ATMİA) əməkdaşlarının da iştirak etdiyi görüşdə iki ölkənin iş adamları arasında birbaşa işgüzar əlaqələrin qurulması və əməkdaşlığın genişləndirilməsi istiqamətində müzakirələr aparıldı.



# TƏDBİRLƏR

**"MATANAT A USTALAR KLUBU" peşəkar inkişaf və texniki biliklərin artırılması istiqamətində təşkil etdiyi ənənəvi maarifləndirmə tədbirlərini davam etdirir.**

"MATANAT A USTALAR KLUBU" peşəkar inkişaf və texniki biliklərin artırılması istiqamətində təşkil etdiyi ənənəvi maarifləndirmə tədbirlərini davam etdirir. Növbəti silsilə tədbirlər çərçivəsində Gəncə şəhərində yüzlərlə peşəkar usta ilə bir araya gələrək şirkətin brendləri olan AĞDAĞ GİPSKARTON LÖVHƏLƏRİ, FASMİNERAL, İNOVEX, FASKER və s.  məhsullar barədə ətraflı məlumatlar verildi.

İNOVEX quru divar sistemləri ənənəvi kərpic, mişar daşı, qazbetonla görülən hörgü işini əvəz edir. Daş yunu ilə birgə istifadə olunduğundan İNOVEX ilə enerjiyə qənaət edilir və yanğına dayanıqlı bir divar əldə olunur.

İNOVEX – hər iki tərəfi mineral liflərlə gücləndirilmiş, örtüklə örtülmüş fasad lövhəsidir.

Tədbir zamanı iştirakçılara məhsulların üstünlükləri, istifadə sahələri və tətbiq üsulları praktik nümunələrlə izah olundu.






**Sərginin adı: CONSTRUCTION SITE EXPO 2026**
**Tarixlər: 13-15 yanvar 2026-cı il,**
**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**
Tikinti sahələrinin təşkilini və təhlükəsizliyini təkmilləşdirən texnologiyalara və həllərə həsr olunub. Burada iskələ və müvəqqəti konstruksiyalar, çəpərlər və təhlükəsizlik, sanitariya qurğuları sahəsindəki yeniliklər nümayiş etdirilir.

**Sərginin adı: WIRE TECH EXPO 2026**
**Tarixlər: 13-15 yanvar 2026-cı il,**
**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**
“Wire Tech Poland” sərgisində kabel istehsalı üçün xammal, maşın və texnologiyalar, eləcə də sənaye, enerji və telekommunikasiya üçün kabel sistemləri nümayiş etdirilir.

**Sərginin adı: KOMINKI - FIREPLACES POZNAN 2026**
**Tarixlər: 2026-cı ilin yanvar**
**Məkan: Poznan Konqres Mərkəzində, Poznan (Polşa)**
Beynəlxalq Kamin Sərgisi, Budma tikinti və memarlıq sərgisi ilə birlikdə keçirilir.

**Sərginin adı: AQUAFUN 2026**
**Tarixlər: 15 - 17 yanvar 2026  2026-ci il,**
**Məkan: İstanbul Sərgi Mərkəzi / İstanbul Fuar Mərkəzi / CNR Expo, İstanbul (Türkiyə)**
Hovuz, Spa, Sağlamlıq və Su Attraksionu Sərgisi. Üzgüçülük Hovuzu Xidmətləri və Avadanlıqları, SPA və Sağlamlıq, Avadanlıq və Xidmətlər, Fəvvarələr, Dekorativ Hovuzlar...

**Cəbrayılda 1042 ailəlik klub-icma mərkəzi tikiləcək – 2 milyonluq layihə**

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu (VÖEN – 1400305341) açıq tender elan edir.
Müsabiqənin predmeti Cəbrayıl rayonunun Şükürbəyli 1042 ailəlik (birinci mərhələdə - 635 ailəlik) kənd yaşayış məntəqəsində klub-icma mərkəzinin tikintisi işlərinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Aygün Hüseynova -Satınalmalar üzrə menecerin müavini
Email: a.huseynova@sfdi.gov.az
Əlaqə telefonu: +994 12 431 87 03



**Şəmkirdə mənzillərin layihələndirilməsi 854 min manata başa gələcək.**

"MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN – 1701953921) açıq müsabiqə elan edir.
Müsabiqənin predmeti Şəmkir şəhərində 5,76 ha torpaq sahəsində yaşayış kompleksinin layihələndirilməsidir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vüqar Əliyev - Şöbə müdirinin müavini
Email: vugar.aliyev@mida.gov.az
Əlaqə telefonu: +994 12 594 54 01 (239)



**Şuşada 36,7 milyon manata 7 bina tikilir – TENDER**

"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" Publik Hüquqi Şəxsi (VÖEN – 8600208181) açıq tender elan edir.
Müsabiqənin predmeti Şuşa şəhərində D-3 massivində yerləşən 2-ci mərhələ üzrə tikintisi nəzərdə tutulan yeni 7 (yeddi) yaşayış binasının tikinti işlərinin və ərazinin abadlaşdırılması işlərinin satınalınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Babək Kərimli - Satınalma sektorunun müdiri
Email: bkarimli@shusha.gov.az
Əlaqə telefonu: +994 70 203 05 20



**Şuşada 30 milyon manata 8 yeni bina tikiləcək – TENDER**

"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" Publik Hüquqi Şəxsi (VÖEN – 8600208181) açıq tender elan edir.
Tenderdə D-5 massivində 2-ci mərhələ üzrə 8 ədəd (9, 10, 11, 12, 13, 14, 15 və 16 nömrəli binalar) 4 mərtəbəli yaşayış binalarının, xidmətedici və yardımçı (köməkçi) təyinatlı obyektlərin tikintisi və abadlıq işlərinin satınalınması nəzərdə tutulurur.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Babək Kərimli - Satınalma sektorunun müdiri
Email: bkarimli@shusha.gov.az
Əlaqə telefonu: +994 70 203 05 20



**"DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Dayanıqlı Və Operativ Sosial Təminat Agentliyi" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elan Salyan rayonu, Hacıqabul rayonu və Biləsuvar şəhəri ünvanlarında yerləşən DOST Agentliyi PHŞ-nin balansında olan inzibati binalarının (Filial) əsaslı təmir işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Sücayət Əliyeva, Aparıcı mütəxəssis
Email:sujayat.f.aliyeva@sosial.gov.az
Əlaqə telefonu:+994 12 525 50 26





www.atmia.az